

# ÖLDÜRÜCÜ VƏ İQTİSADİYYATA ZƏRƏRLİ OLAN
# TÜTÜNÇƏKMƏYƏ SON QOYAQ

WORLD BANK GROUP

twitter.com/wbg_health

Dünya Bankı Qrupunun tütün məmulatları ilə mübarizə sahəsində fəaliyyəti Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlıqda, Bill və Melinda Qeyts Fondu və Blumberq Fondunun dəstəyi ilə həyata keçirilir.

# DÜNYA BANKI QRUPU

## Qlobal Tütünə Nəzarət Proqramı

## TÜTÜNÇƏKMƏ DÜNYADA QARŞISI ALINA BİLƏN XƏSTƏLƏNMƏ VƏ ÖLÜMÜN ƏSAS SƏBƏBİDİR



**22%**

Yer kürəsi əhalisinin 22%-dən çoxu tütün çəkir. Dünyada 1.3 milyard tütünçəkənin təxminən 80%-i aşağı və orta gəlirli ölkələrdə yaşayır.

Tütünçəkmədən hər il daha çox insan ölür, nəinki ümumi olaraq **İİV/QİÇS, vərəm və malyariyadan.**

(ÜST 2008-ci il, ÜST 2015-ci il)




# 1.4 TRİLYON ABŞ DOLLARI

Tütün epidemiyası dünyada sağlamlığa təsir edən ən böyük təhlükələrdən biridir: o, hər il təxminən 6 milyon insanın həyatına son qoyur, onlardan 5 milyondan çoxu birbaşa tütün məmulatlarından istifadə edən aktiv tütünçəkənlər, 600 mindən çoxu isə ətrafa yayılan tütün tüstüsünün təsirinə məruz qalan siqaret çəkməyənlərdir. (ÜST-nin tütünlə bağlı faktları, 2016-cı il)

Tütündən istifadə demək olar ki, insanın bütün orqanlarının xəstəliklərinin səbəbidir. Tütünçəkmə xronik xəstəliklə və vaxtından əvvəl ölümlə nəticələnməklə ümumi olaraq işçilərin məhsuldarlığını və əmək fəaliyyətinin müddətini qısaldır. (ABŞ-ın Səhiyyə və Sosial Xidmətlər Nazirliyi, 2014-cü il)

## Tütünçəkmənin ümumi iqtisadi zərəri il ərzində 1.4 trilyon ABŞ dollarından çoxdur ki, bu da dünyanın illik ümumi daxili məhsulunun (ÜDM) 1,8%-nə bərabərdir.

(Goodchild M, Nargis N, Tursan d'Espaignet E., 2017-ci il)



## TÜTÜNLƏ MÜBARİZƏ HAMIYA, YOXSUL ƏHALİ TƏBƏQƏSİNƏ İSƏ XÜSUSİLƏ FAYDALI TƏSİR EDİR

# İSTEHLAKDA DƏYİŞİKLİKLƏR

Tütün vergiləri və siqaretlərin qiymətləri artdıqda varlı təbəqə ilə müqayisədə yoxsul insanlar daha böyük ehtimalla tütündən imtina edəcəklər.

(CBO 2012-ci il, IARC 2011-ci il, Gallet, C. və List, J.A., 2003-cü il, Chaloupka, F. və Warner, K. 2000-ci il)






Davamlı İnkişaf Məqsədləri (DİM) ölkələri 2030-cu ilədək qeyri-infeksion xəstəliklərdən ölüm hallarının 30% azaldılmasına çağırır.



Gənc yaşlarında tütün çəkməyə başlamış insanlar 40 yaşadək tütündən imtina etsələr, onların tütünçəkmə səbəbindən yaranan vaxtından əvvəl ölüm riski 90%-dək azala bilər. 50 yaşadək tütündən imtina edən insanlar üçün vaxtından əvvəl ölüm riski yarıdan çox azala bilər. (Jha, P. və Peto. R. 2014-cü il)



Tütünlə əlaqəli ölüm hallarının qarşısının alınması qeyri-infeksion xəstəliklərin yayılmasının azalması deməkdir və bizi DİM-ə nail olmağa yaxınlaşdırır.

## TÜTÜN VERGİLƏRİNİN ARTIRILMASI

# SƏHİYYƏ VƏ İQTİSADİYYAT ÜÇÜN
# QARŞILIQLI FAYDA

Tütün vergilərinin artırılması tütündən istifadəni azaltmağa və əhalinin sağlamlığının yaxşılaşdırılmasına, eləcə də bütün əhaliyə fayda verən prioritet investisiya sahələrinin və proqramlarının maliyyələşdirilməsi üçün istifadə edilə bilən dövlət gəlirlərinin artmasına şərait yaradır.




Dünyanın bütün ölkələrində 20 ədəd siqaretdən ibarət 1 siqaret qutusunun tütün vergisinin 1 beynəlxalq dollar həcmində artırılması ilə siqaretlərin orta pərakəndə satış qiyməti 42% (3.20-dən 4.55 beynəlxalq dollarıdək) və tütün məmulatlarından vergi gəlirləri 47% (402 milyarddan 593 milyard beynəlxalq dollarıdək) çoxala bilər. Bu da 190 milyard beynəlxalq dollar həcmində əlavə gəlir əldə etməyə imkan verə bilər.

(Goodchild, Perucic,A.M., və Nargis, N.. 2016-cı il)




Çində təzəliklə keçirlimiş bir araşdırmanın hesablamalarına görə, aksiz vergiləri sayəsində tütün məmulatlarının qiymətlərinin 50% artırılması əhalinin ümumi həyat davamiyyətini 231 milyon il artıra və tütündən istifadə ilə əlaqəli xəstəliklərin müalicə xərclərini 24 milyard ABŞ dollarınadək azalda bilər.

(Verguet, S., Gauvreau, C.L., Mishra, M.,  et al, 2015-ci il)

# ÖLKƏLƏR

## TÜTÜN VERGİLƏRİNİ ARTIRIR, LAKİN…

Dünyada siqaretlərin qiyməti hələ də çox aşağıdır. Yalnız 33 ölkədə vergilər bir siqaret qutusunun pərakəndə satış qiymətinin istehlaka təsir etmək üçün tövsiyə edilən 75% vergi dərəcəsindən yüksəkdir. (ÜST, 2015-ci il)

# FİLİPPİN

2012-ci ildə Filippində tütün vergiləri artırılmış və sadələşdirilmişdir.

- Filippində böyüklər arasında tütünçəkmə 2008-ci ildə 31%-dən 2015-ci ildə 23.3%-dək azaldı.
- İlk üç il ərzində yığılan "günah vergisi" sayəsində toplanan 3,9 milyard ABŞ dolları həcmində əlavə gəlirin təxminən 80%-i tütün məmulatlarının payına düşür.
- Əvəzinə dövlət tərəfindən tibbi sığorta haqları ödənilən ailələrin sayı 2012-ci ildə 5,2 milyondan 2015-ci ildə 15,3 milyonadək artdı.

(Kaiser, K, Bredenkamp, C., İglesias, R. 2016-ci il)




FİLİPPİN SƏHİYYƏ NAZİRLİYİNİN BÜDCƏSİ

# UKRAYNA

## 2008-2017-ci illər: tütün aksizlərinin qaldırılması siyasətinin nəticələri.

| | |
|---|---|
| Siqaret aksizlərinin orta göstəricisi: | 10 dəfədən çox artma |
| Tütün aksizlərindən əldə edilən illik gəlir: | 6 dəfə artma |
| Siqaret satışı: | 40% azalma |
| Gündəlik tütünçəkmənin yayılması: (Krasovsky K. 2017-ci il) | 28% azalma |
| Qiymətləndirmələrə əsasən, tütün vergilərinin son artımı sayəsində vergi yığımlarının həcmi ÜDM-in 2016-cı ildəki 1.5%-i ilə müqayisədə 2017-ci ildə 1.7%-dək çatdırıla bilər. (Marquez, P.V, Gonima, A., 2016-ci il) | Hesablamalara görə, tütün vergilərini artırmaqla 2035-ci ilədək tütünçəkmə ilə əlaqəli 125 mindən çox yeni xəstələnmə hallarının, təxminən 30 min vaxtından əvvəl ölüm hallarının, eləcə də 260 mindən çox ömür illərinin itirilməsinin qarşısını almaq mümkündür. (Webber, L.,Andreeva, TI., Sotomayor, R., Marquez, P.V., et al, 2017-ci il) |

# BƏZİ ÖLKƏLƏRDƏ TÜTÜN VERGİLƏRİNİN ARTIRILMASI DAHA GENİŞ MALİYYƏ İSLAHATLARIN TƏRTİB HİSSƏSİDİR

**KOLUMBİYA**

Tütün vergisinin 2016-cı ildə artırılması 2017-2018-ci illərdə tütün məmulatlarının qiymətlərinin üç dəfə yüksəlməsi ilə nəticələnəcək; sonrakı illərdə inflyasiya səviyyəsinə görə illik düzəlişlər ediləcək və vergi dərəcələri sanksiyalarla artırılacaq. Hesablamalara görə, tütün vergisindən əldə ediləcək əlavə gəlir 2022-ci ilədək 350 milyon ABŞ dolları olacaq; eyni zamanda bu vergi səhiyyə göstəricilərinin yaxşılaşmasını da təmin edəcək. (Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi. Dünya Bankı Qrupu, 2016-cı il)

**BOTSVANA**

Tütündən istifadənin artan yükü ilə mübarizə məqsədilə Cənubi Afrika Gömrük İttifaqının tətbiq etdiyi pərakəndə qiymətinin 39%-i həcmində olan tütün məmulatlarının vahid regional aksizinə əlavə olaraq 2014-cü ildə Botsvana hökuməti tütün məmulatlarına 30%-lik yığım təyin etdi. Bu əlavə yığımdan əldə edilən gəlirlər, qeyri-infeksion xəstəliklərin profilaktikası və mübarizəsinə xüsusi diqqət yetirməklə, sağlamlığın yaxşılaşdırılması üzrə ümumi tədbirlərin aparılması üçün nəzərdə tutulur. (Botsvana Respublikasının Parlamenti, 2013-cü il)

**MOLDOVA**

Hesablamalara görə, tütün vergisinin artırılması 2017-2019-cu illərdə ÜDM-in təxminən 1.5%-nə bərabər daxilolmalarla təmin edəcək (əvvəllər onlar ÜDM-in 1%-indən az idi). Bu isə dövlətin büdcə potensialını artıra və QİX riskini azalda bilər. (Marquez, P.V., Gonima, A., Krasovsky, K. 2016-cı il)

# İLK ƏHƏMİYYƏTLİ NƏTİCƏLƏR:

**İrimiqyaslı və sürətlə hərəkət edin.**

İlk növbədə vergi strategiyaları sağlamlıqla bağlı nailiyyətlərin əldə edilməsinə, sonra isə büdcənin doldurulmasına istiqamətləndirilməlidir. Bu da artıq erkən mərhələdən tütün vergilərinin əhəmiyyətli dərəcədə artırılması deməkdir.

**Qiymətlərə zərbə vurun.**

Effektiv strategiyalar vergi dərəcələrinin ilkin mərhələdə əhəmiyyətli artması ilə yanaşı, onların inflyasiya və adambaşına düşən gəlirin yüksəlməsinə görə tənzimlənməsi məqsədilə vaxtaşırı artırılmasına əsaslanır.

**Vəsaitlərin məqsədyönlü ayrılmasını təmin edin.**

Vergilərin artırılması nəticəsində əldə edilən vəsaitlərin strateji əhəmiyyətli məqsədlər üçün ayrılması əhali tərəfindən vergilərin artırılmasının dəstəklənməsinə kömək edə bilər.

**Alyanslar təşkil edin.**

Tütün sənayesinin təsirinə qarşı mübarizə üçün elmi dəlillərdən və müxtəlif ölkələrin təcrübəsindən istifadə etmək, eləcə də beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyətinin dəstəyi ilə effektiv siyasətin işlənib hazırlanması üçün Maliyyə və Səhiyyə Nazirliklərini və digər dövlət qurumlarını cəlb etmək vacibdir.



WORLD BANK GROUP

**Dünya Bankı Qrupu**
Qlobal tütünlə mübarizə proqramı
www.worldbank.org/en/topic/health/brief/tobacco

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Kitabça "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiyanın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Fəaliyyət Planı"nın 9.2.1-ci bəndinə uyğun olaraq Dünya Bankı Qrupunun məlumatlarına əsasən Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.